*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
***ISSN: 2148-2292***
***10 (2) 2023***
*https://doi.org/10.46868/atdd.2023.275*

***Araştırma Makalesi | Research Article***
***Geliş tarihi |Received: 03.03.2023***
***Kabul tarihi |Accepted: 20.04. 2023***
***Yayın tarihi |Published: 25.04.202***

**Əzət Dadaşova**
*https://orcid.org/0000-0002-6531-8170*
*Doctoral student, Baku State University "History of Azerbaijan" department, Azerbaijan-ezet_000@mail.ru*

***Atıf Künyesi | Citation Info***
Dadaşova, Ə. (2023). Yeni Sənaye Mərkəzi Daşkəsən (1940-1950-ci illər). *Akademik Tarih ve Düşünce Dergisi, 10* (2), 127-136.

# Yeni Sənaye Mərkəzi Daşkəsən (1940-1950-ci illər)

***Öz***

*XX əsrin 40-ci illərində Azərbaycanda yeni sənaye mərkəzləri yaranmışdır. Belə sənaye mərkəzlərindən biri də Daşkəsəndir. Daşkəsən qiymətli yeraltı sərvətlərdən sənaye üsulu ilə istifadə edilməsi, filiz-mədən kombinatının, filizsaflaşdırma fabrikinin və Zəylik alunit mədəninin işə salınması sayəsində Vətənimizin hüdudlarından kənarda da çox məşhurdur. Şəhərin tarixi, onun inkişafı məhz həmin sənaye müəssisələrinin və mədənlərinin tarixi ilə qırılmaz sürətdə bağlıdır. Daşkəsənin bir çox sənaye mərkəzlərinin yaranıb inkişaf etməsində böyük rolu olmuşdur. Daşkəsən filiz rayonunu "Azərbaycan Uralı" adlandırırlar. Daşkəsən Zaqafqaziyada əsas alüminum, dəmir və başqa metallar almaq üçün xammal mənbəyi olduğundan Uralı bu cəhətdən xatırladır. Buradakı dəmir filizi yataqlarının böyük gələcəyə malik olmasını vaxtilə məşhur rus alimi D. İ. Mendeleyev, İ. M. Qurkin və başqaları söyləmişdir. 1893-cü ildə D. İ. Mendeleyev yazırdı ki, Daşkəsəndəki zəngin zəy daşı nə İtalyada, nə də Macarıstanda vardı. Məqalədə Daşkəsən şəhərinin formalaşmasını əsaslandıran iqtisadi-tarixi amillər araşdırılmışdır. Şəhərin yaranması üçün əsas olan iqtisadi elementlər açıqlanmışdır. Daşkəsənin şəhərə çevrilməsinin iqtisadi əsasları verilmişdir. Daşkəsənin şəhər kimi formalaşmasını sürətləndirən proseslər ümumiləşdirilmişdi. Məqalədə arxiv sənədlərindən, Daşkəsən haqqında müxtəlif ədəbiyyatlardan istifadə olunmuşdur.*

***Anahtar Kelimeler:*** *Daşkəsən, Filiz-mədən Sənayesi, Metallurgiya, Zavod*

# New Industrial Center Dashkasan (1940-1950s)

***Abstract***

*In the 40s of the 20th century, new industrial centers were established in Azerbaijan. Dashkasan is one of such industrial centers. Thanks to the industrial use of valuable underground resources, the operation of an ore-mining combine, a mineralization factory, and the Zaylik alunite mine; Dashkasan is very famous even outside the borders of our country. History of the city and its development are inextricably linked with the history of those industrial enterprises and mines. Dashkasan has played a major role in the creation and development of many industrial centers. Dashkasan ore region is called "the Urals of Azerbaijan". Dashkasan is reminiscent of the Urals, as it is the main source of raw materials for buying aluminum, iron and other metals in Transcaucasia. The famous Russian scientist D. I. Mendeleev, I. M. Gurkin and others once said that the iron ore deposits here would have a great future. In 1893, D. I. Mendeleev wrote that the rich ore (zəy/alum) stone in Dashkasan was not found neither in Italy nor in Hungary. The article examines the economic-historical factors that justify formation of the city of Dashkasan. Economic elements that are the basis for creation of the city are explained. The economic basis of Dashkesan's transformation into a city is mentioned. The processes that accelerated the formation of Dashkasa as a city were summarized. The article used archival documents and various literatures about Dashkasan.*

***Keywords:*** *Dashkasan, Ore-mining Industry, Metallurgy, Factory*

## Giriş

Qafqaz mədən işinin məşhur tədqiqatçısı Musin-Puşkin hələ 1800-cü ildə Daşkəsəndə zavodun bünövrəsini qoymaq üçün buradakı mədənlərə diqqətini daha da artırmışdır. Burada olan əhəngdaşı və mərmər yerli əhalinin diqqətini çoxdan cəlb etmişdir. Daşyonanlar həmin mədən yataqlarından kustar üsulla istifadə edib yaraşıqlı evlər tikirdilər. Belə fikir söyləyirdilər ki, "Daşkəsən" sözü burada daş kəsib yonanların adı ilə bağlı olaraq yaranmışdır. XVIII əsrin axırlarından başlayaraq Daşkəsəndə rus və xarici sahibkarlar yerli əhalinin dəmir filizi çıxarılması və əridilməsi işinə cəlb edirdilər. Xaritonov tərəfindən 1865-ci ildə Daşkəsəndə kiçik zavod tikilmiş, Simens qardaşları isə Almaniyadan bu yerlərə gələrək zəngin kobalt yataqlarını istismar etmişdir. XIX əsrin 60-cı illəri və XX əsrin əvvəllərində Daşkəsən mədənlərindən xeyli miqdarda kobalt Almaniyaya göndərilirmiş, hətta onlar gizli geoloji-kəşfiyyat işləri apararaq burada külli miqdarda yüksək keyfiyyətli dəmir ehtiyatı olduğunu

müəyyən etmişdilər. Daşkəsən rayonunda filiz-mədən sənayesinin tarixi nə qədər qədim olsa da, Azərbaycanın milli iqtisadiyyatı üçün bunu demək olar ki, heç bir faydası olmamışdır. Çünki yadelli kapitalistlərin mənfəətini artırmaq məqsədilə Daşkəsəndə istehsal olunan dəmir filizi xaricə daşınmışdır. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Daşkəsən filiz mədənləri milliləşdirilərək xalqın istifadəsinə verildi. Arxeoloji qazıntılar nəticəsində Daşkəsəndə küllü miqdarda müxtəlif formalı və növlü saxsı qablar aşkara çıxmışdır. Belə qabların hazırlanması onu göstərir ki, o vaxt Kiçik Qafqazın sakinləri kaolinlərdən bu məqsəd üçün geniş istifadə etmişlər.Tarixçilərin məlumatlarına görə X-XII əsrlərdə Azərbaycanda Gədəbəydə mis, Gəncə yaxınlığında dəmir filizi, Daşkəsəndə mərmər, Zəylikdə zəy, alunit, kaolinit çıxarılmışdır (Səmədov, 1966). Daşkəsəndə hələ XII-XIII əsrlərdə olan kobaltdan göy rəngli boyanın alınması üçün istifadə edilmişdir. Bu təbii sərvətlərdən əsasən XIX əsrin əvvəlindən müxtəlif sahələrdə geniş istifadə edilmişdir.

**1-Daşkəsəndə Dəmir Filizi Mədəninin Tədqiq Edilməsi**

Daşkəsən rayonu Gəncə şəhərindən cənub-qərbdə, Kiçik Qafqazın şimal-şərqində yerləşir. Rayon eyni zamanda Ermənistan, Şəmkir, Kəlbəcər, Gədəbəy və Göygöl rayonları ilə həmsərhəddir. Keçmiş Sunqurabad nahiyəsi olan Daşkəsən rayonu Azərbaycan SSR-də 1930-cu ildə inzibati ərazi kimi yaradılmışdır. 1948-ci ildə isə şəhərin əsası qoyulmuşdur. Daşkəsən rayonu dəmir filizi yataqlarının istifadəyə verilməsi ilə əlaqədar salınıb.

Sovet geoloqları tərəfindən tezliklə Daşkəsən rayonundakı yeraltı sərvətlər aşkara çıxarıldı və yeni-yeni yataqlar kəşf edildi. Burada geoloq K. Paffenqolsun rəhbərliyi ilə 1923-1924-cü illərdə geoloji- kəşfiyyat işləri aparılmışdır. SSRİ Xalq Təsərrüfat Şurasının xüsusi komissiyası 1925-ci ildə Daşkəsən dəmir filizindən sənayedə istifadə etməyin mümkün olmasını təsdiq etdi. Həmin ildə Azərbaycan SSR Xalq Komissarları Soveti nəzdində Daşkəsən Komitəsi təşkil edildi. Komitənin əsas məqsədi Daşkəsənin yeraltı sərvətlərinin hərtərəfli öyrənmək idi (İmanov, 1979). Zaqafqaziya respublikalarında yaradılan ağır sənaye müəssisələrinin keyfiyyətli metala çox ehtiyac vardı. Metal emalı və maşınqayırma sənayesi müəssisələrinin əsas hissəsini metal məmulatı ilə təmin etmək üçün daxili xammal mənbələrindən istifadə etmək lazım gəlirdi.Göstərilən ehtiyacları ödəmək üçün Daşkəsən dəmir filizindən tez bir zamanda istifadə edilməli idi. Zaqafqaziyada metallurgiya zavodunun tikilməsini Sovet hökuməti günün ən vacib vəzifəsi kimi qarşıya qoydu (İmanov, 1979).

Azərbaycan SSR Xalq Komissarları Soveti və Azərbaycan KP Mərkəzi Komitəsi görkəmli filiz-mədən sənayesi mütəxəssislərini, mühəndis-geoloqları, partiya və dövlət

xadimlərini Daşkəsən dəmir filizi yataqlarının ehtiyat və keyfiyyətini, metallurgiya kombinatı tikilməsi məsələsini müəyyənləşdirmək üçün səfərbər etdilər.Azərbaycanın görkəmli partiya və dövlət xadimlərindən Çingiz İldırım, Həmid Sultanov, Dadaş Bünyadzadə, Qəzənfər Musabəyov və başqaları Daşkəsənin dəmir filizi mədənlərinin tədqiq edilib istifadəyə verilməsi məsələsi ilə məşğul olurdular. Onlar bu sahədə çalışan görkəmli mütəxəssis və alimlərin rəylərini öyrənir, məqalələrini oxuyur və problemlərinin həllində yaxından iştirak edirdilər (İmanov, 1979). Bunların sayəsində kəşfiyyat işlərində səmərəli nəticə əldə olunurdu.

**2- Metallurgiya Zavodunun Tikintisi**

Daşkəsən mədənləri əsasında Zaqafqaziya metallurgiya zavodunun tikilməsi haqqında UİK(b) P MK və SSRİ XKS 1940-cı il oktyabrın 12-də qərar qəbul etdilər. Bu qərarda zavodun Daşkəsəndə yox Tbilisinin 9 kilometrliyində tikilməsi lazım bilinirdi. Metallurgiya zavodunun tikintisinə 1940-cı ilin payızında başlandı. Lakin İkinci Dünya müharibəsinin başlanması bu çox mühüm dövlət əhəmiyyətli tədbirin həyata keçirilməsinə mane oldu. Zavodun tikintisinə Böyük Vətən müharibəsi qurtardıqdan sonra başlamaq mümkün oldu. Gürcüstan SSR-də Zaqafqaziya metallurgiya zavodunun inşasına başlamaq üçün 1944-cü ilin mart ayından ciddi hazırlıq işləri görüldü. Zaqafqaziya respublikalarında xalq təsərrüfatının kompleks inkişafının bir hissəsini Zaqafqaziya metallurgiya zavodu və Daşkəsən dəmir filizi mədənləri təşkil edirdi. Bu Zaqafqaziyanın bütün təsərrüfat imkanlarından düzgün, həm də yerli xammaldan və istilik enerjisi mənbələrindən məqsədəuyğun şəkildə istifadə etməyə əsas yaradırdı (İmanov, 1979). Müharibə qurtardıqdan sonra qarşıda duran əsas vəzifə ən qısa müddətdə xalq təsərrüfatını bərpa etmək, onu daha da inkişaf etdirilməsini təmin etməkdən ibarət idi. SSRİ xalq təsərrüfatının bərpa və inkişaf etdirilməsinə dair dördüncü beşillik planda bu vəzifə öz konkret ifadəsini tapdı.

Planda Azərbaycan SSR-də boru prokatı zavodu, Gürcüstan SSR-də metallurgiya zavodu tikilməli, dəmir filizi ehtiyatlarını daha da artırmaq məqsədilə geoloji-kəşfiyyat işləri genişləndirilməli ,yerli dəmir filizi mədənləri yaradılmalı idi. Dördüncü beşillik planın qarşıya qoyduğu mühüm vəzifələrdən biridə Daşkəsəndəki Zəylik alunit yatalarının işə salınması hesabına Azərbaycanda gil- torpaq zavodunun birinci növbəsinin işə salınması, alunit ehtiyatlarının artırmaq məqsədilə geoloji-kəşfiyyat işlərini genişləndirilməsi və Daşkəsəndə filiz-mədən sənayesi yaratmaq ploblemi müharibənin qurtardığı ilk günlərdən yenidən qarşıda durdu. Tbilisi yaxınlığında Zaqafqaziya metallurgiya zavodunun tikintisinə başlanması ilə əlaqədar olaraq 1945-ci il dekabrın 1-də “ Zarya Vostoka” qəzetində yazılmışdır : “ Keçən il

Sovet hökuməti Dəstəfur rayonunda filiz mədənlərinin yaradılması haqqında qərar qəbul etmişdir. Bu mədənlər Yuxarı Daşkəsən kəndinin yaxınlığında tikiləcəkdir".

Azərbaycan KP Mərkəzi Komitəsi və respublika hökuməti Daşkəsəndə yeni şəhərin bünövrəsinin qoyulması və mədənlərinin işə salınması üçün konkret tədbirlər gördülər. Tikinti işlərini sürətləndirmək üçün 1945-ci il 29 yanvar tarixli 25 saylı əmrə əsasən SSRİ Qara Metallurgiya Xalq Komissarlığı Daşkəsən Mədənlər İdarəsi təşkil etdi.

1945-ci ildə Daşkəsən mədənlərində tikinti işlərinə başlandı. Tikinti işləri Daşkəsən mədənlərində olduqca ağır şəraitdə aparılırdı. Təbiət bu zəngin və qiymətli dəmir ehtiyatını çox hündür dağlarda gizlətmişdir. Daşkəsən digər yaşayış məntəqələrindən uzaq bir yer idi. Ora ancaq araba yolu ilə getmək olardı. Heyvandarlıqla məşğul olan sayca çox az əhalisi tikintini işçi qüvvəsi ilə təmin etmək iqtidarında deyildi. Əvvəllər tikintidə inşaat texnikası və mexanizmi yox idi. İxtisaslı işçi qüvvəsi çatışmırdı. İnşaatçılar sözün həqiqi mənasında çətinlik çəkirdi. Tikintinin sürətlə aparılmasını bu çətinliklər ləngidirdi (İmanov, 1979).

### 3- Daşkəsən: Yeni Sənaye Mərkəzi

Daşkəsəndə aparılan mədən tikintisi işlərinin tarixini əsasən iki mərhələyə bölmək olar. Birinci mərhələ 1945-ci ildən 1954-cü ilin aprelinə qədər olan dövrü əhatə edir. Bu mərhələdə Daşkəsən filiz mədənlərinin kompleks tikintisi üçün hazırlıq işləri aparılmışdır. İkinci mərhələ 1954-cü ildən sonrakı dövrü əhatə edir. Bu mərhələ, bir tərəfdən, Daşkəsən mədənlərinin təkmilləşdirilməsi və genişləndirilməsi, filiz istehsalının daha da artırılması, digər tərəfdən isə filiz mədənləri və saflaşdırıcı fabrik işə salındıqdan sonra Daşkəsən şəhərinin gələcək inkişafı ilə əlaqədar olaraq yeni sənaye müəssisələrinin və digər obyektlərin tikilib genişlənməsi ilə səciyyələnir. Kolxozçu-gənclər Daşkəsən tikintilərində işləməyə gələnlərin əksəriyyətini təşkil edirdilər. Kəndli gənclərin bir hissəsi kolxoz təsərrüfatının mexanikləşdirilməsi nəticəsində yeni sənaye mərkəzlərinə şəhərlərə işləməyə gəlirdi. 1945-ci il 10 mart tarixli qərarında Azərbaycan KP MK və Azərbaycan SSR XKS-nın Daşkəsən filiz mədənlərinin tikintisində işləmək üçün min nəfərə qədər gəncin səfərbər edilməsi əsas vəzifələrdən idi.

SSRİ Xalq Komissarları Sovetinin göstərişi ilə 1945-ci ildə SSRİ Qara Metallurgiya Komissarlığının Baş Mədənlər İdarəsi Daşkəsən tikintilərini ixtisaslı fəhlələrlə təmin etmək üçün mühüm tədbirlər gördü. Nikopol, Ural və Krivoy-Roq mədənlərindən 76 nəfər ixtisaslı fəhlə Daşkəsənə ezam edildi (Səmədov, 1966). Yüzlərlə gənc fəhlə Azərbaycan kəndlərindən gəlmiş SSRİ Qara Metallurgiya Komissarlığının cənub müəssisələrində yeni peşələrə yiyələnərək, Daşkəsən mədənlərinə qayıtmışlar. Daşkəsən dəmir filizi yataqlarının istifadəyə

verilməsi ilə əlaqədar olaraq yüksək ixtisaslı mütəxəssislərə də ehtiyac artırdı. Yüzlərlə daşkəsənli ölkəmizin müxtəlif sənaye mərkəzlərində, xüsusən Nijin Takildə və Ural mədənlərində ayrı-ayrı vaxtlarda mədənçi peşəsinə yiyələnərək Daşkəsənə qayıtmışdı. Daşkəsəndə işləyən bütün fəhlə və qulluçuların 70 faizini azərbaycanlılar, qalanlarını isə ermənilər, ruslar və başqa millətlərin nümayəndələri təşkil edirdilər. (Səmədov, 1966). Ölkəmizdə həyata keçirilən müəyyən tədbirlər nəticəsində fəhlələrin mədəni-texniki səviyyəsi xeyli yüksəlmişdir.Fəhlələrin əksəriyyəti müharibədən əvvəlki illərdə ibtidai və natamam orta təhsil almışdı. Müharibədən sonraki illərdə ali və ali-orta təhsilli mütəxəssislərin sayı ildən -ilə çoxalmışdı. Daşkəsən mədənçiləri və inşaatçıları tərəfindən SSRİ xalq təsərrüfatının inkişafına dair dördüncü beşillik plan böyük ruh yüksəkliyi ilə qarşılandı. Fəhlələr tikinti-quraşdırma işlərini sürətləndirməyə, yeni tikinti obyektlərini beşilliyin axırına kimi istifadəyə verməyə böyük səylə çalışırdılar.Fəhlələr planı artıqlaması ilə yerinə yetirdilər.

1947-ci ilin plan tapşırıqları  Daşkəsən Kobalt Mədən İdarəsi kollektivinin fədakar işi nəticəsində  artıqlaması ilə ödənilmişdi. Mədən planda nəzərdə tutulmuş zərər əvəzinə 2764 min manatdan çox əlavə mənfəət əldə etmişdi .Dördüncü beşilliyin sonrakı illərində də Daşkəsən Mədən Tikinti İdarəsinin kollektivi bir çox  müvəffəqiyyətlər qazandı. Sərt qayaları və dağları partladıb dağıtdıqdan sonra Daşkəsəndə bütün sənaye obyektləri və yaşayış binaları tikilmişdir (Səmədov, 1966). Daşkəsən sənaye müəssisələri tikilib istifadəyə verilirdikcə inşaatçıların gənc şəhəri də böyüyürdü. İnşaatçıların fədakar əməyi sayəsində  yeni yaraşıqlı binalar tikilir və fəhlələrin mənzilə olan ehtiyacı təmin edilir. Daşkəsən əhalisinin yaşayış şəraitini yaxşılaşdırmaq, onların sağlamlığını qorumaq və onlara mədəni-məişət xidmətini yaxşılaşdırmaq üçün hər il böyük işlər görülür. Daşkəsən getdikcə böyüyür və genişlənir, onun ətrafında yeni qəsəbələr yaranır (İmanov, 1979). SSRİ Nazirlər Soveti 1946-cı il sentyabrın 13-də Daşkəsən mədənlərində tikinti işlərini müvəffəqiyyətlə aparmaq üçün qərar qəbul etdi. Həmin qərarda dəmir yolunun çəkilməsi, dəmiryol xəttinin elektrikləşdirilməsi  qeyd olunmuşdur. Daşkəsənə şose yolu çəkmək üçün çox əmək sərf edildi.

1946-cı ildən başlayaraq Daşkəsən Mədənlər İdarəsi dəmir filizi yataqlarını vaxtından əvvəl istismara vermək üçün hər iki mədəndə şimal-şərq və şimal-qərb mədənlərində filiz laylarının üstünü açdırmağa başladı. Burada üç növbədə  iş aparıldı. Əvvəlcə 1700 metr yüksəklikdə olan şimal-şərq mədənini istifadəyə verilməsi nəzərdə tutulurdu.Filiz laylarının üstünü açmaq üçün süxurlar vaxtaşırı partladılır. Bu haqda o zaman "Bakinski raboçi" qəzeti yazırdı ki, Daşkəsən mədənlərinin tikintisində dəmir filizi laylarının üzə çıxarılması və açıq üsulla istismar edilməsi üçün qızğın iş gedir. Qara Metallurgiya Nazirliyi və SSRİ  Ağır Sənaye Nazirliyi 1947-ci ilin

aprelində Daşkəsən dəmir filizi mədənlərinin istismara verilməsini sürətləndirmək haqqında 106 saylı tikinti idarəsinə və Daşkəsən Mədənlər İdarəsinə lazımı göstərişlər verdilər.

İnşaatçılar filizsaflaşdırma fabrikinin tikintisinə 1948-ci ilin ortalarında başladılar. Bu fabrik, mədənlərdən çıxarılan qarışıq dəmir filizini daş və torpaqdan maqnitlə (seçmə yolu ilə) ayırıb, yarımfabrikat məhsul formasında Zaqafqaziya metallurgiya zavoduna göndərəcək çok mühüm istehsalat əhəmiyyətinə malik obyekt idi. Daşkəsən inşaatçıları dördüncü beşilliyin tapşırıqlarını layiqincə yerinə yetirərək , bir sıra mühüm obyektlərin inşasını başa çatdırdılar. Daşkəsən şəhərinin əsası mart ayının 16-sı 1948—ci ildə qoyulub.1956-cı ilə kimi Dəstəfur rayonu adını daşımış (Azərbaycan Sovet Ensiklopediyası, 1979) 1956-cı ildən Daşkəsən rayonu kimi tanınmışdır (Azərbaycan Toponimlərinin Ensiklopediyası, 2007). Yüksək gərginlikli elektrik enerjisi verən qurğu 1949-cu ilin avqustunda tikilib başa çatdırıldı. Tikinti-quruculuq işləri Daşkəsəndə gündən-günə inkişaf edir və sərf olunan dövlət vəsaiti durmadan çoxalırdı. Mədən tikintisinə sərf edilən əsaslı vəsait 1945-ci ildəki 10 milyon manatdan artıb 1948-ci ildə 26 milyon manata, 1950 –ci ildə 29 milyon manata, 1953-cü ildə isə 70 milyon manata çatmışdır (İmanov, 1979). Mədən tikintilərində işlərin mexanikləşdirilməsi prosesi getdikcə genişlənirdi. 1949-cu ildə mədən tikinti trestində çınqıl və daş hazırlanması işləri 100 faiz , beton hazırlanması 80 faiz, sement məhsulu hazırlanması 70 faiz mexanikləşdirilmişdi (İmanov, 1979). Mədən tikinti işlərində müəyyən çətinliklər var idi. Bu çətinlikləri aradan qaldırmaq üçün Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi və respublika Nazirlər Soveti 1951-ci ildə Daşkəsən filiz mədənləri tikintisində vəziyyət haqqında ayrıca məsələ müzakirə etdilər. Müzakirə zamanı qeyd edildi ki, mədən tikintisi işçi qüvvəsi və lazımi texnika ilə vaxtında təchiz edilmir. Tikintinin bəzi sahələrində iş pis təşkil edilmişdi. Çoxlu zəhmət tələb edən bir sıra işlər hələ mexanikləşdirilməmiş və tikinti-quraşdırma işləri planı yerinə yetirilməmişdir. Daşkəsən dəmir mədəninin inşaatının gedişatı barədə Azərbaycan Nazirlər şurasının və Azərbaycan kommunist partiyasının MK-nin qərarında qeyd edir ki, Daşkəsən dəmir mədəninin inşaatının gedişatı qənaətbəxş deyil. 1951-ci ilin birinci yarım ili üçün nəzərdə tutulmuş tikinti montaj planı pozulub.1951-ci ilə Daşkəsən fabrikinin inşaatına ayrılmış 8 milyon rubldan təkcə yarim ilə 651.9 min rublu mənimsənilib (Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi İctimai-Siyasi Sənədlər Arxivi).

Azərbaycan KP MK-nın və Azərbaycan SSR Nazirlər Sovetinin tədbirləri Daşkəsən mədənlər idarəsi fəhlələrinin və mühəndis –texnik işçilərinin ümumi yığıncağında geniş müzakirə olundu. Mövcud nöqsanları aradan qaldırmaqla işdə dönüş yaratmaq üçün konkret

tədbirlər müəyyən edildi. 1953-cü ilin axırına kimi mədənin birinci növbəsinin istismara verilməsi üçün lazım olan mühüm işlər görülüb başa çatdırıldı. Azərbaycan metallurgiya sənayesinin inkişafı tarixində əlamətdar bir səhifə 1954-cü il aprelin 30-da yazıldı.Saflaşdırılmış ilk Daşkəsən filizi qardaş Gürcüstanın Rustavi metallurgiya zavoduna göndərildi. Beləliklə, Şimal-şərq mədənləri işə salındı (İmanov, 1979). Filizsaflaşdırma fabrikinin işə salınması ilə Daşkəsənin sənaye mərkəzi kimi inkişafı tarixində yeni mərhələ başlandı. Bu mərhələdə başlıca vəzifə məhsul istehsalı səviyyəsini ardıcıl olaraq yüksəltməkdən, Daşkəsən filiz mədənlərini təkmilləşdirib genişləndirməkdən ibarətdi (İmanov, 1979). 1954-cü ilin aprelində Daşkəsən dəmir mədəninin tikintisi başa çatdırıldığı vaxtdan respublikanın iqtisadiyyatında filiz-mədən sənayesi mühüm yer tutdu. 1948-1954-cü illərdə Azərbaycan filizsaflaşdırma kombinatı tikilib istifadəyə verildi (Qaffarov, 1999). Şimal-qərb və şimal-şərq mədənlərində açıq üsulla çıxarılan dəmir filizi 1955-ci ilə işə düşmüş saflaşdırıcı fabrikə gətirildi. (Azərbaycan tarixi, 2008). Daşkəsəndəki Azərbaycan filizsaflaşdırma kombinatında 1960-cı ildə dəmir filizi çıxarmaq üçün əlavə qurğular işə salındı. 1951-1960-cı illər filiz-mədən sənayesinin sürətli inkişafı ilə əlamətdar olmuşdur (ARPİİSSA f.1, s.37,i.87,v.6.) 1958-ci ildə Alunitdağda gözəl və yaraşıqlı yeni qəsəbə salınmışdı. Qəsəbəyə radio, telefon, elektrik xətləri çəkilmiş, qəsəbənin sakinləri üçün rabitə, səhiyyə məntəqələri, yataqxana, mağaza və müxtəlif ictimai-iaşə müəssisələri tikilmişdir.

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramları ölkənin bütün bölgələrində olduğu kimi Daşkəsən rayonunda da uğurla həyata keçirilir. Son illərdə rayonda bir sıra infastruktur layihələri yerinə yetirilmiş, o cümlədən Mərkəz Rayon Xəstəxanası, Gənclərin Təlim və İstirahət Mərkəzi və digər sosialyönümlü obyektlər tikilərək istifadəyə verilmişdi. Daşkəsən Filizsaflaşdırma kombinatının fəaliyyəti bərpa olunmuş, avtomobil yolları çəkilmiş, geniş abadlıq-quruculuq işləri aparılmışdır (https://president.az/az/articles/view/13145). Bununla yanaşı Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən 2020-ci ildə Daşkəsəndə dəmir-filizi yatağının istismara verilməsi ilə əlaqədar “AzərGold Qapalı Səhmdar Cəmiyyətinə” ilkin olaraq dövlət büdcəsindən 3 (üç) milyon manat ayrılmışdır (https://president.az/az/articles/view/40302).

## Sonuç

XX əsrin 40-cı illərində Azərbaycan SSR-də Daşkəsən dəmir filizi yatağı əsasında filiz-mədən sənayesinin yaradılmağa başlanması böyük hadisə oldu. Azərbaycanın dəmir filizi ehtiyatları ilə zəngin olması istehsal dövriyyəli metallurgiya zavodunun yaradılmasına yol açdı. Totalitar sistem istehsalın öz inkişaf tələblərinə məhəl qoymayaraq, Azərbaycanın dəmir filizi ehtiyatları əsasında Gürcüstan SSR-də fəhlə sinfini artırmaq pərdəsi altında, yanacaq və xammal bazasından xeyli uzaq məsafədə yerləşən Rustavidə bu müəssisənin tikilməsini qərara aldı. Rustavidəki Zaqafqaziya metallurgiya zavodu bu mədənin bazası əsasında yaradılmışdır. Daşkəsən dəmir filizi yatağı əsasında Zaqafqaziya respublikaları metallurgiya sənayesi kompleksinin təməli qoyulmuşdur. Həmin müəssisə bütün Sovet İttifaqında ən keyfiyyətli metallurgiya məhsulları istehsal edən müəssisələrdən birinə çevrildi. Həmçinin, müəssisənin fəaliyyəti nəticəsində Azərbaycan SSR-də yeni filiz mədənləri və saflaşdırıcı fabriklərin sayı çoxaldı. “Azərbaycan Uralı” gündən-günə çiçəklənir, tərəqqi edir. Gənclik şəhəri qardaş xalqlar arasında yeni-yeni nailiyyətlər qazanır və inkişaf edir. Daşkəsən şəhəri dünya bazarında ölkəmizi layiqincə təmsil edir. Məqalədə Daşkəsənin kiçik bir yaşayış məntəqəsindən şəhərə çevrilməsinin iqtisadi əsasları verilmişdir. Şəhərin sənaye infrastrukturunun yaradılması prosesləri təhlil olunmuşdur. Şəhər təsərrüfatının formalaşdırılması və inkişaf etməsinin qanunauyğunluqları müəyyənləşdirilmişdir. Sovetlər birliyi dövründə Daşkəsənin şəhər kimi formalaşmasının iqtisadi-tarixi cəhətləri verilmişdir.

## Kaynaklar

Arpiissa F.1, S.37,İ.87,V.6.

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi İctimai-Siyasi Sənədlər Arxivi F.1, S.36, İ.25, V.11.

*Azərbaycan Sovet Ensiklopediyası.* (1979). [10 Cilddə]. III, Azərbaycan Sovet Ensiklopediyasının Baş Redaksiyasının Nəşriyyatı.

*Azərbaycan Tarixi* (2008). [7 Cilddə]. VII, Elm Nəşriyyatı.

*Azərbaycan Toponimlərinin Esiklopediyası*. 2007. [2 Cilddə]. I, Şərq-Qərb Nəşriyyatı.

İmanov, R. (1979). *Daşkəsən*, Azərbaycan Dövlət Nəşriyyatı.

Qaffarov,T. (1999). *Azərbaycan Tarixi (1920-1991),* Mürtəcim.

Səmədov, S. (1966). *Azərbaycan Uralı*, Azərbaycan Dövlət Nəşriyyatı.

https://President.Az/Az/Articles/View/13145.

https://President.Az/Az/Articles/View/40302